# DİDROGİL
# Didrogyl®

Bioloji fəallığa malik qida əlavəsi

Hər bir damcının tərkibinə 5 mkq xolekalsiferol (D3 vitamini) daxildir. Tərkibində olan tokoferol qarışığı təmiz zeytun yağı əsasında hazırlanmışdır və konservantsızdır.

**Tərkibi (1 damcıda):**
*Təsiredici maddələr (miqdarı göstərilməklə):*
Xolekalsiferol (D3 vitamini) Cholecalciferol (Vitamin D3) – 0,00515 mq;
Təbii tokoferol qarışığı (Tocobiol) – 0,00873 mq.
*Köməkçi maddələr:* Təmiz zeytun yağı (Virgin olive oil).

*Qeyd:* Hər damcıda olan 5 mkq (200 BV) xolekalsiferol Avropada NRV (Nutrient Reference Value-Qida Dəyəri Göstəricisi) -ə 100% uyğundur.

**İstifadə sahəsi və əsas göstərişlər**
D vitamininin əlavə mənbəyi kimi tövsiyə olunan BFMQƏ.

**İstifadə qaydası və doza**
1 yaşdan yuxarı uşaqlar və böyüklərə (o cümlədən hamiləlik və laktasiya dövründə) gündə 3 damcı (15 mkq) daxilə qəbul edilir.
Flakonun bağlayıcı halqasını çıxarın və şüşəni qaşığa doğru əyin. Lazımi miqdarda damcını qaşığa tökün və sonra qəbul edin. Dəqiq dozanın alınmasını təmin etmək üçün flakonu tamamilə başıaşağı çevirdiyinizdən əmin olun.

**Əks göstərişlər**
Məhsulun tərkibində olan hər hansı bir komponentə qarşı həssaslıq.

**Xəbərdarlıq və ehtiyat tədbirləri**
Dərman vasitəsi deyildir. Xəstəliklərin müalicəsi məqsədi ilə istifadə edilə bilməz. Tövsiyə edilən sutkalıq dozanı keçməyin. BFMQƏ normal qidalanmanı əvəz etmir. Uşaqların əli çatmayan yerdə saxlayın.

**Buraxılış forması**
Daxilə qəbul üçün məhlul-damcı, 20 ml şüşə flakonda içlik vərəqə ilə karton qutu qablaşmada.

**Saxlanma şəraiti**
25$^{0}$C – dən yüksək olmayan temperaturda və quru yerdə saxlanılmalıdır.

**Yararlılıq müddəti:**
3 il

**İstehsalçı**
PHARMALINK, S.L., İspaniya
Av. Universitat Autònoma, 13 - Parc Tecnològic del Vallès
08290 Cerdanyola del Vallès - BARCELONA (İspaniya)
Atención al cliente: +34 900 102 796 - www.pharmalink.es